Aqrar Xidmətlər Agentliyi

# Tut Qalxanlı Yastıca

# (Pseudoulacaspis pentagona Targ-Tozz)



088-588
axa.gov.az

## Zərərverici haqqında

Azərbaycanda daxili karantin obyektidir. Dişi fərdin bədəni oval formada, sarı və ya açıq-limon rəngində, uzunluğu 1,0-1,5 mm olmaqla, çanağın altında yerləşir. Qanadları və ayağı olmur.
Erkək fərdlərin morfoloji xüsusiyyətləri dişi fərdlərdən çox fərqlənir və uzunluğu 0,5-1,0 mm olmaqla parlaq sarı rəngdə bir cüt qanadlara malikdir. Bir dişi fər yaşadığı müddətdə 100-dən - 180-ə qədər yumurta qoya bilir. Yumurtası oval formada ağ, sarımtıl, ya da narıncı rəngdə olur və dişi fərdin bədəninin altında yerləşir. Azərbaycanda zərərverici 2-3 nəsil verir.

## Mübarizə tədbirləri

- Qalxanlı yastıca yayılmış ərazilərdən ting və calaq materiallarının aparılmasına qadağa qoyulmalı, yaxud zərərsizləşdirildikdən sonra icazə verilməlidir.
- Ağacların dibinə fosfor və kalium gübrələri vermək lazımdır.
- Tut qalxanlı yastıcasının çoxalmasının qarşısını almaq üçün enkarziya parazitindən istifadə olunur.
- Vegetasiya müddətində isə zərərvericiyə qarşı aşağıdakı preparatlardan istifadə olunması məsləhət görülür: fosfor üzvü birləşmələrdən – dimetoat tərkibli, malation tərkibli preparatlardan, neonikotinoid birləşmələrdən – tiametoksan tərkibli, asetamiprid tərkibli, peritroid birləşmələrindən – deltametrin tərkibli.



**Zərərverici**